*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(5) 2024*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:27.08.2024*
*Kabul tarihi |Accepted:10.10.2024*
*Yayın tarihi |Published:25.10.2024*

**İradə Məmmədova**

*https://orcid.org/0009-0006-8203-2488*
*Associate Professor, Azerbaijan National Academy of Sciences, Bakikhanov Institute of History, Azerbaijan, irade.mammadli@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Məmmədova, İ. (2024). 1831-ci İl Kameral Təsvirinə Görə Naxçıvan Əyalətinin Dərələyəz Mahalının Sərhədləri, Ərazisi və Demoqrafik Vəziyyəti. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (5), 3311-3337. https://doi.org/10.46868/atdd.2024.819

# 1831-ci İl Kameral Təsvirinə Görə Naxçıvan Əyalətinin Dərələyəz Mahalının Sərhədləri, Ərazisi və Demoqrafik Vəziyyəti

***Xülasə***

*Məqalədə 1831-ci il kameral təsvirinə görə Naxçıvan əyalətinin Dərələyəz mahalının sərhədləri, ərazisi və demoqrafik vəziyyəti müqayisəli, statistik və digər metodlardan istifadə olunmaqla araşdırılmışdır. 1831-ci ilin kameral təsvirinə görə Rusiya işğalı ərəfəsində Dərələyəz mahalında müsəlmanlar əhalinin 94,5%-ni, xristianlar (ermənilər) isə 5,5%-ni təşkil etmişdir. Lakin Rusiya işğalından sonra ermənilərin Osmanlı və Qacarlar dövlətindən köçürülərək mahala yerləşdirilməsinin nəticəsi olaraq onların sayı süni surətdə artırılaraq 36,4%-ə çatdırılmış, müsəlman ailələrinin sayı isə azalaraq 63,6%-nə enmişdir. Buna baxmayaraq ermənilərin mahala köçürülməsindən sonra belə mahalda müsəlmanlar şəksiz üstünlüyə malik olmuşlar.*

***Açar sözlər:*** *Dərələyəz mahalı, Naxçıvan əyaləti, kameral təsvir, demoqrafik vəziyyət, köçürmələr*

# According to the 1831 Kameral Description, Borders, Territories and Demographic Status of Deralayaz District of Nakhchivan Province

***Abstract***

*In the article, according to the Kameral description of 1831, the borders, territory and demographic situation of Daralayaz kaza of Nakhchivan province were investigated by comparative, statistical and other methods. According to the 1831 Kameral description, on the eve of the Russian occupation, 94.5 per cent of the population of Darelayaz kaza were Muslims and 5.5 per cent were*

BY NC
Creative Commons Licence

*Christians (Armenians). However, after the Russian occupation, as a result of the transfer of Armenians from the Ottoman and Gajar provinces to the district, their number was artificially increased to 36.4%, while the number of Muslim families decreased to 63.6%. However, even after the transfer of Armenians to the district, Muslims had an indisputable superiority in the district.*

***Keywords:*** *Deraleaz kaza, Nakhchivan province, video footage, demographic situation, migrations*

## Giriş

Rusiya imperiyası İrəvan və Naxçıvan xanlıqlarını işğal etdikdən sonra çar hökuməti tərəfindən 21 mart 1828-ci ildə bu xanlıqların yerində “Erməni vilayəti” yaradıldı. 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrinin şərtləri ermənilərin keçmiş İrəvan və Naxçıvan xanlıqları daxil olmaqla Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülərək yerləşdirilməsinə zəmin yaratdı (Məmmədova, 2017, s. 28). İşğaldan sonra Rusiya imperiyası əhalidən alınan vergiləri qaydaya salmaq üçün kameral təsvirlər tərtib etdi. XIX əsrin əvvəllərində Azərbaycanda baş verən demoqrafik proseslərin, əhalinin etnik, say, konfessional və sosial tərkibinin, miqrasiya, əhali köçürülmələri və s. məsələlərin öyrənilməsində Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalından sonra tərtib etdikləri kameral təsvirlərin əhəmiyyəti böyükdür. Azərbaycanda Rusiya işğalından sonra Rusiya imperiyası tərəfindən ərazisi köçürmələrə məruz qalaraq etnik tərkibinin dəyişikliyə uğradığı xanlıqlardan biri də Naxçıvan xanlığıdır. Rusiya işğalından sonra “Erməni vilayəti” tərkibində Naxçıvan əyalətinə çevrilən bu xanlığın ərazisinə Osmanlı dövləti və Qacarlar dövləti ərazisindən erməni ailələri köçürülərək yerləşdirilmişdir. Tədqiq olunan mövzu 1831-ci il kameral təsvirinə görə Naxçıvan əyalətinin Dərələyəz mahalının sərhədləri, ərazisi və demoqrafik vəziyyətidir. Onu da qeyd etmək lazımdır ki, Ermənistan Milli arxivində saxlanılan 1831-ci il Dərələyəz mahalının kameral təsviri Nazir Əhmədli tərəfindən əldə edilərək Azərbaycan dilinə tərcümə edimiş və onun tərtib etdiyi kitab 2021-ci ildə nəşr edilmişdir. Bu arxivdə saxlanılan sənədlərin surətini bizə təqdim etdiyi üçün Nazir Əhmədliyə təşəkkürümüzü bildiririk.

## 1. Dərələyəz mahalının coğrafi mövqeyi, ərazisi və kəndlərinin əhalisi

1831-ci il Dərələyəz mahalının kameral təsvirinə görə Dərələyəz mahalı Naxçıvan əyalətinin şimal hissəsində yerləşməklə, şimalda İrəvan və Qarabağ əyalətləri, şərqdə Qarabağ əyaləti, cənubda Xok, Məvazixatun və Naxçıvan mahalları, qərbdə İrəvan əyaləti ilə həmsərhəddir. Dərələyəz mahalının şimaldan cənuba eni Martiros kəndindən Səlimin karvansarasına qədər təxminən 40 verst, şərqdən qərbə uzunluğu, yəni Gümüşxana kəndindən Çanaxçı kəndinə qədər 50 verst, mahalın ümumi sahəsi təxminən 2 min kv. verstdir (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g.,

v.507; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 400). Şopen Dərələyəz mahalının şimaldan Qarabağ əyaləti, cənubdan Şərur, qərbdən Göyçay və Vedibasar, şərqdən Naxçıvan mahalları ilə əhatə olunduğunu yazırdı (Şopen, 1852, s. 447). Kameral təsvirin tərtibçisi quberniya katibi Vladimir Zolotnitskiyə görə Dərələyəz mahalının qərb hissəsi Qacarlar dövlətindən köçürülən ermənilərlə, şərq hissəsi isə Qarabağdan gələn müsəlmanlarla məskunlaşdırılmışdır. Zolotnitskiyə görə bu iki xalq heç cür yanaşı yaşaya bilmirdi, ona görə də mahalın orta hissəsi və bol sulu gözəl Gülüdüz düzənliyi boş qalmışdı.

*Axura* kəndi Xok mahalının Tənənəm kəndindən şimalda, Hacı Qədim və Kölgəli dağlarının arasındakı düzənlikdə yerləşirdi. Ətrafındakı torpaqlar 20 verst idi. Kameral təsvirin tərtibçisi əhalinin dediyinə əsaslanaraq Axura kəndinin torpaqlarının Hüseynəli Sultan Dostəli Sultan oğluna məxsus olduğunu bildirir. Əhalisi tatar[1] olan Axura kəndində 23 ailə, 70-i kişi, 56-sı qadın olmaqla cəmi 126 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 2-9; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 406-408). *Dostəli bəy Dizəsi* kəndi Axura kəndinin yaxınlığında yerləşirdi və torpaqları ümumi idi. Bu kənd də Hüseynəli Sultan Dostəli Sultan oğluna məxsus idi. Əhalisi tatar olan Dostəlibəy Dizə kəndində 3 ailə, 9-u kişi, 5-i qadın olmaqla cəmi 14 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 10-11; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 408-409). *Həmzə Əli Dizəsi* kəndi Axura çayının Arpaçaya töküldüyü düzənlikdə yerləşirdi. Ətrafında ona məxsus torpaqlar 14 verst idi. Kənd sakinlərindən alınan məlumata görə bu mülk Hüseynəli Sultana və Yaycı kəndində yaşayan digər mülkədarlara məxsus olmuşdur. Kənddə 19 ailə, 39-u kişi, 40-ı qadın olmaqla cəmi 79 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 12-16 ; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s.409-410).

Əhalisinin sayına və zənginliyinə görə mahalda ən üstün olan *Yaycı* kəndi Arpaçayın 3 verstliyində, dağların Arpaçaya baxan sinəsində yerləşirdi. Onun bütün ərazisi 40 verst idi. Kəndin torpağı sakinlərə məxsus idi. Əhalisi tatar olan Yaycı kəndində 246 ailə, 448-i kişi, 449-u qadın olmaqla cəmi 897 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 17-68; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 410-424).

*Cağazu*r kəndi Yaycı kəndinin 3 verstliyində yerləşirdi və 11 verstə yaxın torpağı vardı. Sakinlərin dediyinə görə, mülkün yarısı İbrahim bəyə, qalan yarısı isə kənd əhalisinə məxsus

[1] Azərbaycan türkü

imiş. Əhalisi tatar olan Cağazur kəndində 5 ailə, 10-u kişi, 6-sı qadın, cəmi 16 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 69-70; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 424-425). *Xaçik* kəndi Cağazur kəndindən 7 verst şərqdə, hundur bir yerdə yerləşirdi. 20 verst torpağı olan kənddə 1 ailə tatar, 5 ailə Cəlali kürdü olmaqla 3 müsəlman ailəsi, 6-sı kişi, 3-ü qadın olmaqla cəmi 9[2] nəfər musəlman, 15 ailə yerli erməni, Qacarlar dövlətindən köçürülmüş 4 erməni ailəsi yaşayırdı. Kəndin ümumi əhalisi 22 ailə, 49-u kişi, 52-si qadın olmaqla, cəmi 101 nəfər idi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 71-77; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 425-426).

*Amağu* kəndi Bu kənd Xaçikdən Arpa kəndinə gedən yolun sağında, dərədə yerləşirdi. 20 verst torpağı vardı. Kənddə 9 tatar ailəsi, 15 kişi, 16[3] qadın, cəmi 31 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 78-79; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 426-427). *Arpa* kəndində 14 yerli və Osmanlı dövlətindən köçürülən 4 erməni ailəsi olmaqla, ümumilikdə 15 ailə, 23-ü kişi, 28-i qadın olmaqla cəmi 51 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 80-83; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 427). *Yuxarı Danzik* kəndi Arpaçayın sol sahilində yerləşirdi, çayın hər iki sahilində 21 verst ərazisi vardı. Sakinlərin dediyinə görə, mülk Şirəli Sultan Qasım Sultan oğluna məxsus idi. Əhalisi tatar olan Yuxarı Danzik kəndində 30 ailə, 57-i kişi, 69-u qadın olmaqla cəmi 126 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 84-91; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 427-429).

*Aşağı Danzik* kəndi Arpa çayın sağ sahilində, Yuxarı Danzik kəndindən 3 verst aşağıda yerləşirdi və torpaqları bu kəndlə ümumi idi. Əhalisi tatar olan Aşağı Danzik kəndində 7 ailə, 14-ü kişi, 13-ü qadın olmaqla cəmi 27 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 92-93; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 429-430).

*Çivə* kəndi Rusiya hökumətinin vaxtında, sağ tərəfdən Arpa çayına tökülən Yelpin çayının sahilində salınmışdı. Aşağı Danzik kəndinin 6 verstliyində idi. Bu kəndin ərazisi Girə Gəzər deyilən yerlə birlikdə 14 verst idi. Kəndin torpaqları Hüseynəli Sultana məxsus olmuşdur. Çivə kəndində 9 tatar ailəsi, 15-i kişi, 14-ü qadın olmaqla cəmi 29 tatar, 4 yerli erməni ailəsi, 9-u kişi, 7-si qadın olmaqla cəmi 16 nəfər, Osmanlı dövlətindən köçürülmüş 2 erməni ailəsi, 4-ü kişi, 3-ü qadın olmaqla 7 nəfər yaşayırdı. Kənddə ümumilikdə 15 ailə, 28-i

[2] Nazir Əhmədli texniki xəta olaraq 15 yazmışdır (Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 426).
[3] Nazir Əhmədli texniki xəta olaraq 6 yazmışdır (Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 427).

kişi, 24-ü qadın olmaqla cəmi 52 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 94-96; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 430-431). *Heşin* kəndi Çivə kəndindən 6 verst şimal-qərbdə yerləşirdi, torpağı 10 verst idi. Əhalisi Qaraçorlu olan Heşin kəndində 14 ailə, 34-ü kişi, 28-i qadın olmaqla cəmi 62 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 97-100; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 431-433).

*Yelpin* kəndində Qacarlar dövlətindən köçürülən 18 erməni ailəsi, 73 kişi, 63 qadın olmaqla cəmi 136 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 101-107; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 433).

Rusiya hökumətinin vaxtında məskunlaşdırılmış *Çanaxçı* kəndi Yelpin kəndindən 10 verst qərbdə yerləşirdi və ətrafında 14 verst torpaq vardı. Xəzinəyə məxsus bu kənddə 3 ailə tatar, 1 ailə Zilan kürdü olmaqla 4 müsəlman ailəsi, 17-si kişi, 13-ü qadın, cəmi 30 nəfər müsəlman və Qacarlar dövlətindən köçürülən 24 erməni ailəsi, 88-i kişi, 91-i qadın olmaqla 179 nəfər erməni yaşayırdı. Kəndin ümumi əhalisi 28 ailədən, 105-i kişi, 104-ü qadın olmaqla cəmi 209 nəfərdən ibarət idi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 108-120; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 433-434).

*Qaşqa* kəndi İrəvan qəzasına verilmişdi. Bu kənd də Rusiya hökumətinin vaxtında məskunlaşdırılmışdı və Çanaxçı kəndinin yaxınlığında yerləşirdi. Kəndin ərazisi 7 verstə yaxın olub xəzinəyə məxsus idi. Qaşqa kəndində 1 tatar ailəsi, 5-i kişi, 3-ü qadın olmaqla cəmi 8 nəfər tatar, Qacarlar dövlətindən köçürülmüş 10 erməni ailəsi, 36-sı kişi, 29-u qadın olmaqla cəmi 65 nəfər erməni yaşayırdı. Kəndin ümumi əhalisi 11 ailədən, 41-i kişi, 32-si qadın olmaqla cəmi 73 nəfərdən ibarət idi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 121-123; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 434-435).

*Keşişviran* kəndində Qacarlar dövlətindən köçürülmüş 9 erməni ailəsi, 22-si kişi, 21-i qadın olmaqla cəmi 43 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 124-126; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 435). *Qoytul* kəndində Qacarlar dövlətindən köçürülmüş 36 erməni ailəsi, 99-u kişi, 102-si qadın olmaqla cəmi 201 nəfər erməni qeydə alınmışdı (Kameralnoye Opisaniye

Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 127-141; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 435).

*Aynazur* kəndində 18 yerli, Qacarlar dövlətindən köçürülmüş 6 və Osmanlı dövlətindən gəlmiş 1 erməni ailəsi olmaqla ümumilikdə 25 ailə, 85-i kişi, 70-i qadın olmaqla cəmi 155 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 142-149; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 435).

*Qozluca* kəndi Aynazur kəndindən 6 verst şimalda, dağlarda yerləşirdi və ərazisi 14 verst idi. Xəzinəyə məxsus bu kənddəki 5, 6, 7, 8, 9, 10 və 11 nömrəli ailələr Qarabağ qəzasının Kəlbəcər nahiyəsindəki Zar kəndinə köçmüşdülər. Qozluca kəndində 3 ailə kürdlərin Zilan-cəlali Miqirqanlı tayfası, 8 ailə qaraçorluların Həsənanlı tayfası olmaqla cəmi 11 ailə, 35-i kişi, 25-i qadın olmaqla cəmi 60 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 150-153; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 435-436).

*Qızılqışlaq* kəndi Arpaçayın sahilində, Qoytul çayın bu çaya töküldüyü yerdən 3 verst aşağıda yerləşirdi və ərazisi 10 verst idi. Kənd Qacarlar dövlətinin vaxtında xəzinəyə məxsus olub, sonradan Sərkisin mülkiyyətinə keçmişdi. Əhalisi Püsyanlı tayfasından olan bu kənddə 17 ailə, 43-ü kişi, 42-si qadın olmaqla cəmi 85 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 154-159; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 436-438).

*Ağxaç* kəndi Məvazixatun çayının sahilində yerləşirdi və torpaqları 11 verst idi. Sakinlərin dediyinə görə, kənd Şeyx Əli bəyə məxsus idi. Əhalisi tatar olan Ağxaç kəndində 6 ailə, 23-ü kişi, 14-ü qadın olmaqla cəmi 37 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 160-162; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 438-439).

*Qabaqlı* kəndi dağlıq yerdə yerləşirdi, ərazisi 14 verst idi. Xəzinəyə məxsus olan bu kənddə qaraçorluların Kulakanlı tayfasına mənsub olan 8 ailə, 16-sı kişi, 17-si qadın olmaqla cəmi 33 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 161-165; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 439-440).

*Zeytə* kəndi Qabaqlı kəndindən 6 verst şimalda yerləşirdi və 21 verst torpağı vardı. Əhalisi qaraçorluların Şadmanlı tayfasına mənsub olan Zeytə kəndində 18 ailə, 40-ı kişi, 27-si qadın olmaqla cəmi 67 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 166-170; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 440-441).

Digər adı isə *Qurdqulaq* olan *Ziqrik* kəndi Qurdqulaq çayının sahilində, 5 bulağa yaxın, əvvəlki kənddən 4 verst qərbdə yerləşirdi. 20 verst torpağı vardı. Şadmanlı tayfasının yaşadığı xəzinəyə məxsus Ziqrik kəndində 10 ailə, 27-si kişi, 16-sı qadın olmaqla cəmi 43 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 171-173; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 441-442).

*Qinişik* kəndi Zikrik kəndindən 7 verst qərbdə yerləşirdi və 21 verst torpağı vardı. Xəzinəyə məxsus olan kənddə 1 ailə müsəlman, 1-i kişi, 2-si qadın olmaqla cəmi 3 nəfər və 6 yerli erməni ailəsi, 12-si kişi, 16-sı qadın olmaqla cəmi 28 nəfər, ümumilikdə 7 ailə, 13-ü kişi, 18-i qadın olmaqla cəmi 31 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 174-176; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 442-443).

*Yengicə* kəndində Qacarlar dövlətindən köçürülmüş 6 erməni ailəsi, 21-i kişi, 21-i qadın, cəmi 42 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 177-179; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 443).

*Əyər* kəndi Qozlu Dərəçayın Arpaçaya töküldüyü yerdə yerləşirdi. Ərazisi 30 verst idi və kənd xəzinəyə məxsus idi. Əyər kəndində qaraçorluların Təhməzli tayfasına mənsub olan 6 ailə, 18-i kişi, 12-si qadın olmaqla cəmi 30 nəfər Qaraçorlu, Qacarlar dövlətindən köçürülmüş 36 erməni ailəsi, 100-ü kişi, 86-sı qadın olmaqla 186 nəfər erməni yaşayırdı. Kəndin ümumi əhalisi 42 ailədən, 122-si kişi, 121-i qadın olmalq cəmi 243 nəfərdə ibarət idi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 180-192; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 443-444).

*Məlikşah* kəndi Əyər kəndindən bir qədər yuxarıda, Arpaçayın sağ sahilində yerləşirdi və 21 verst torpağı vardı. Xəzinəyə məxsus kənddə qaraçorluların Şeylanlı tayfasına mənsub 3 ailə, 7-si kişi, 11-i qadın olmaqla cəmi 18 nəfər və Qacarlar dövlətindən köçürülən 42 erməni ailəsi, 122-si kişi, 121-i qadın olmaqla 243 nəfər erməni yaşayırdı. Kəndin ümumi əhalisi 45 ailədən, 129-u kişi, 132-si qadın olmaqla cəmi 261 nəfərdən ibarət idi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 193-208; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 444-445).

*Keşişkənd* kəndi Dərələyəz nahiyəsinin mərkəzi olub, kənddə Qacarlar dövlətindən köçürülmüş 56 erməni ailəsi və Osmanlı dövlətindən köçürülən 1 erməni ailəsi, ümumilikdə isə 57 erməni ailəsi, 170-i kişi, 162-si qadın olmaqla cəmi 332 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 209-226; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 445).

*Ortakənd* kəndində Qacarlar dövlətindən köçürülmüş 25 erməni ailəsi, 77-si kişi, 51-i qadın olmaqla cəmi 128 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 227-235; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 445). *Başkənd* kəndində 16 erməni ailəsi, 54-ü kişi, 37-si qadın olmaqla cəmi 91 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 236-240; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 445).

*Hors* kəndi Başkənd kəndindən şimalda, Səlim bulağının Qoytul çayına töküldüyü yerdə yerləşirdi və ərazisi 28 verst idi. Xəzinəyə məxsus Hors kəndində 3 ailə, 13-ü kişi, 13-ü qadın olmaqla cəmi 26 nəfər Qaraçorlu və Qacarlar dövlətindən köçürülmüş 31 erməni ailəsi, 91-i kişi, 79-u qadın olmaqla cəmi 170 nəfər erməni yaşayırdı. Kəndin ümumi əhalisi 34 ailədən, 104-ü kişi, 92-si qadın olmaqla cəmi 196 nəfərdən ibarət idi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 241-253; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 445-446). *Tərətün* kəndində Qacarlar dövlətindən köçürülmüş 10 erməni ailəsi, 26-sı kişi, 30-u qadın olmaqla cəmi 56 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 254-256; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 446).

*Kələkülü* kəndində Qacarlar dövlətindən köçürülmüş 21 erməni ailəsi, 60-ı kişi, 61-i qadın olmaqla cəmi 121 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 257-264; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 446).

Səlim çayın yaxınlığında yerləşən *Ağkənd* kəndinin ərazisi 11 verst idi. Bu kəndin torpaqları Qacarıar dövlətinin vaxtında xəzinəyə məxsus olub. Tərtibçi hansı səbəbə görə Hüseyn Sultanın bu mülkə yiyələndiyinin aydın olmadığını yazır. Əhalisi qaraçorluların Əliyanlı tayfasına mənsub olan Ağkənddə 39 ailə, 124-ü kişi, 98-i qadın olmaqla cəmi 222 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 265-276; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 446-450).

Ağdərə kəndinin sakinləri 5 il bundan əvvəl kəndi tərk edərək müxtəlif yerlərə gediblər.[4] Sallı çayının yaxınlığında yerləşən bu kəndin 4 verstə yaxın ərazisi olub. Tərtibçi Qacarlar dövlətinin vaxtında xəzinəyə məxsus olan kəndin, bəlli olmayan səbəblərdən Hüseyn Sultanın mülkiyyətinə keçdiyini yazır. Qaraçorluların Əliyanlı tayfasının yaşadığı Ağdərə kəndində 13 ailə, 45-i kişi, 33-ü qadın olmaqla cəmi 78 nəfər vardı (Kameralnoye Opisaniye Nahiçevanskoy

[4]1842-ci ilin qeydinə görə

Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 277-283; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 450-451).

*Rəsul qışlağı* kəndi Ağdərə kəndinin yaxınlığında yerləşirdi. 7 verstə yaxın torpağı olan kənd xəzinəyə məxsus idi. Kəngərlilərin Əliyanlı tayfasının yaşadığı Rəsul Qışlağı kəndində 5 ailə, 13-ü kişi, 10-u qadın olmaqla cəmi 23 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 284-285; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 451-452).

*Şahgəldi qışlağı* kəndinin bütün əhalisi naməlum yerlərə köçmüşdü. Bu kənd Sallı kəndinin yaxınlığında, Səlim çayın kənarında yerləşirdi. 5 verstə yaxın ərazisi ol kənd xəzinəyə məxsus idi. Rəsul qışlağı kəndində 5 ailə Qaraçorluların Əliyanlı tayfası, 2 ailə Milli kürd tayfası olmaqla cəmi 7 ailə, 16-sı kişi, 20-si qadın olmaqla cəmi 36 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 286-288; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 452-453).

*Sallı* kəndi Səlimçayın yaxınlığında yerləşirdi və ərazisi 14 verst idi. Xəzinəyə məxsus Sallı kəndində 17 ailə, 33-ü kişi, 44-ü qadın olmaqla cəmi 77 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 289-293; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 453-455).

*Obana* kəndinin əhalisinin haraya köçdüyü məlum deyildi. Tərtibçi qonşu Qızılqışlaq və Qoytul kəndlərinin əhalisinin 5 il bundan qabaq[5] məskunlaşdığını yazırdı. Kənd Aynazur kəndinin yaxınlığında olub, xəzinəyə məxsus idi. Əhalisi qaraçorluların Hacısamlı tayfasına mənsub olan bu kənddə 5 ailə, 13-ü kişi, 12-si qadın olmaqla cəmi 25 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 294-295; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 455).

*Ardaras* kəndi Obana kəndinin yaxınlığında idi. Ərazisi 7 verstə yaxın idi. Xəzinəyə məxsus olan bu kənddə kürdlərin Püsyanlı tayfasına mənsub olan 6 ailə, 18-i kişi, 12-si qadın omaqla cəmi 30 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 296-298; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 456).

Qoytul çayının sahilində yerləşən *Əli qışlağı* kəndinin ərazisi 1 verst olub xəzinəyə məxsus idi. Qaraçorluların Təhməzli tayfasının yaşadığı bu kənddə 3 ailə, 13-ü kişi, 6-sı qadın olmaqla cəmi 19 nəfər vardı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii

[5] Kameral təsvir 1831-ci ilə aid olduğundan 5 il bundan qabaq, yəni 1826-ci ildə.

Daralagyozskogo Magala za 1831 g., v. 299-300; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 456).

*Həsən* kəndində Qacarlar dövlətindən köçürülmüş 17 erməni ailəsi, 53-ü kişi, 39-u qadın olmaqla cəmi 92 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 301-306; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 456-457). *Ərdəpin* kəndində Qacarlar dövlətindən köçürülmüş 38 erməni ailəsi, 91-i kişi, 81-o qadın olmaqla cəmi 172 nəfər vardı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 307-317; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 457).

*Əlixan Pəyəsi* kəndi Gömüşbulaq çayının yaxınlığında yerləşirdi və 7 verstə yaxın ərazisi vardı. Xəzinəyə məxsus Əlixanlı tayfasının yaşadığı bu kənddə 5 ailə, 9-u kişi, 9-u qadın olmaqla cəmi 18 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 318-319; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 457-458).

*Xorvadıx* kəndi Gümüşbulağın yaxınlığında yerləşirdi və 11 verst torpağı vardı. Xəzinəyə məxsus olan bu kənddə qaraçorluların Hacısamlı tayfasına mənsub 9 ailə, 15-si kişi, 20-si qadın olmaqla cəmi 35 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 320-322; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 458-459).

*Ələyəz* kəndi Dərələyəz mahalının ən şimal qurtaracağında, Ələyəz çayının üstündə yerləşirdi və ərazisi 35 verstə yaxın idi. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Tərtərli və Hacısamlı tayfalarına mənsub 4 ailə, 18-i kişi, 14-ü qadın olmaqla cəmi 32 nəfər Qaraçorlu, 1 yerli və Qacarlar dövlətindən köçürülmüş 11 erməni ailəsi yaşayırdı. Kəndin ümumi əhalisi 16 ailədən, 59-u kişi, 39-u qadın olmaqla cəmi 98 nəfərdən ibarət idi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 323-329; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 459-460).

*Güneyvənk* kəndi Ələyəz kəndindən şərqdə, Ələyəz çayının kənarında yerləşirdi. Xəzinəyə məxsus olan bu kənddə qaraçorluların Hacısamlı tayfasına mənsub 10 ailə, 28-i kişi, 30-u qadın olmaqla cəmi 58 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 330-333; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 460-461).

Qovuşuq kəndi geniş Gülüdüz düzənliyində, Ələyəz çayının yaxınlığında yerləşirdi. Torpaqları Güneyvənk kəndi ilə ümumi idi. Xəzinəyə məxsus olan bu kənddə qaraçorluların Hacısamlı tayfasına mənsub 18 ailə, 53-ü kişi, 43-ü qadın olmaqla cəmi 96 nəfər vardı

(Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 334-339; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 461-463). Q*aravənk* kəndi Ələyəz kəndindən cənubda, dağlıq yerdə yerləşirdi və ərazisi 14 verst idi. Xəzinəyə məxsus olan bu kənddə tatar (Şıxanlı tayfası) 11 ailə, qaraçorluların Əliyanlı tayfası 3 ailə olmaqla 14 ailə, 46-sı kişi, 34-ü qadın olmaqla cəmi 80 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 340-345; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 463-465). C*ağatay* kəndi Arpaçay sahilində, dağlıq yerdə yerləşirdi və ərazisi 7 verst idi. Xəzinəyə məxsus Cağatay kəndində qaraçorluların Kulakanlı tayfasına məxsus 6 ailə, 17-si kişi, 13-ü qadın olmaqla cəmi 30 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 346-347; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 465). Arpaçayın sahilində, dağların arasında yerləşən *Ertış* kəndinin ərazisi 20 verst idi. Əvvəllər kənd xəzinəyə məxsus olub, kameral təsvir tərtib olunanda isə Hüseynəli Sultan bu mülkə yiyələnmişdi. Kənddən yuxarıda, dağların üstündə baxımsız qalmış Şeyx Əli xan qalası yerləşirdi. Ertış kəndində Milli tayfası 10 ailə və tatarlar 3 ailə olmaqla 13 ailə, 45-i kişi, 25-i qadın olmaqla cəmi 70 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 348-352; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 466-467).

A*xta* kəndi Köçbək[6] çayının sahilində yerləşirdi və ərazisi 21 verst idi. Kənd xəzinəyə məxsus idi. 2, 3, 4, 5 və 6 nömrəli ailələr 8 il qabaq[7] Naxçıvan qəzasının Qaraboya kəndinə köçmüşdülər. Axta kəndində qaraçorluların Həsənanlı tayfası 23 ailə, Milli tayfası 5 ailə, tatarlar 6 ailə olmaqla cəmi 34 ailə, 100-ü kişi, 87-si qadın olmaqla cəmi 187 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 353-363; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 467-470).

*Tezxarab* kəndi Arpaçaya yaxın, dağlıq yerdə yerləşirdi və torpaqları 14 verstə yaxın idi. Xəzinəyə məxsus olan bu kənddə qaraçorluların Kulakanlı tayfasınıa mənsub 5 ailə, 10-u kişi, 12-si qadın olmaqla cəmi 22 nəfər qeydə alnmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 364-365; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 470-471). *Azadək* kəndində Qacarlar dövlətindən köçürülmüş 33 erməni ailəsi, 90-i kişi, 76-sı qadın olmaqla cəmi 166 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 366-375; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 471).

[6] Nazir Əhmədli kameral təsviri tərtib edən quberniya katibi V.Zolotnitskinin səhvə yol verdiyini qeyd edərək, Axta kəndinin Axta çayının kənarında yerləşdiyini bildirir.
[7] Kameral təsvir 1831-ci ilə aid olduğundan 8 il bundan qabaq, yəni 1823-ci ildə.

*Por* kəndi dağlıq yerdə idi və torpaqları 11 verstə yaxın idi. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Bozlu tayfasına mənsub 5 ailə, 10-u kişi, 8-i qadın olmaqla cəmi 18 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 376-377; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 471-472).

*Paşalı* kəndində Qacarlar dövlətindən köçürülmüş 18 erməni ailəsi, 49-u kişi, 49-u qadın olmaqla cəmi 98 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 378-383; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 472). *Qaralar* kəndinin bütün əhalisi 3 il qabaq[8] Qarabağ qəzasının Minkənd kəndinə köçmüşdü. Paşalı kəndinin yaxınlığında yerləşirdi və ərazisi 14 verst idi. Xəzinəyə məxsus olan bu kənddə qaraçorluların Bozlu tayfasına mənsub13 ailə, 25-i kişi, 24-ü qadın olmaqla cəmi 49 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 384-387; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 472-473).

*Göyərçin* kəndinin torpaqları 4 verst idi. Xəzinəyə məxsus olan bu kənddə qaraçorluların Həsənanlı tayfasına mənsub 5 ailə, 13-ü kişi, 7-si qadın olmaqla cəmi 20 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 388-389; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 473).

*Söylan* kəndi Arpaçayın sahilində yerləşirdi və 21 verst torpağı vardı. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Kulakanlı tayfasına mənsub 14 ailə, 30-u kişi, 28-i qadın olmaqla cəmi 58 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 390-393; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 474-475).

*Mərətüz qışlağı* kəndi hündür bir yerdə yerləşirdi və torpaqları 14 verst idi. Xəzinəyə məxsus olan bu kənddə qaraçorluların Həsənanlı tayfasına mənsub 6 ailə, 17-si kişi, 16-sı qadın, olmaqla cəmi 32 nəfər yaşayırdı. Bu əhalinin haraya getdiyi bilinmirdi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 394-396; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 475-476).

Ərazisi 21 verst olan *Ərgəz* kəndi dağlıq yerdə yerləşirdi və 20 xalvar əkinə yararlı suvarılan torpağı vardı, dəmyə torpaqları çox olsa da, onun 10 xalvarında taxıl əkirdilər. Xəzinəyə məxsus bu kənddə müxtəlif tayfalara (qaraçorluların Təhməzli tayfası - 28 ailə, Püsyanlı tayfası - 5 ailə, Milli tayfası - 1 ailə, kəngərlilərin Yurdçu tayfası - 2 ailə, Şadıllı tayfası - 1 ailə, Qarabağlı tayfası - 1 ailə) mənsub olan 38 ailə, 109-u kişi, 84-ü qadın olmaqla cəmi

[8] Kameral təsvir 1831-ci ilə aid olduğundan 3 il bundan qabaq, yəni 1828-ci ildə.

193 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 397-408; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 476-479).

*Bülbülölən* kəndi qışlaq idi və dağların arasında yerləşirdi. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Gəlohçu tayfasına mənsub 12 ailə, 43-ü kişi, 24-ü qadın olmaqla cəmi 67 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 409-413; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 479-480).

Canıçayının sahilində yerləşən *Aşağı Canı* kəndinin əraziləri 14 verstdən artıq idi. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Təhməzli tayfasından 8 ailə, Türkiyədən gələn 1 ailə[9] olmaqla 9 ailə və 1 tatar ailəsi, cəmi 10 ailə, 21-i kişi, 24-ü qadın olmaqla cəmi 45 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 414-416; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 480-482).

*Her-Her* kəndi Tağ çayının sahilində, dağlıq yerdə yerləşirdi. Boş qalmış Kotanlı və Kövgəz kəndləri ilə birlikdə 35 verst ərazisi vardı. Xəzinəyə məxsus olan bu kənddə nə vaxtsa 200 ailə yaşamışdı. Her-her kəndində müxtəlif tayfalara (qaraçorluların Fərruxqanlı tayfası - 26 ailə, Əliyanlı tayfası - 3 ailə, qaraçorluların Əliyanlı tayfası - 2 ailə, Püsyanlı tayfası - 1 ailə, Zilanlı tayfası - 3 ailə, qaraçorluların Həsənanlı tayfası - 1 ailə, Hacısamlı tayfası - 3 ailə, Şadılı tayfası - 3 ailə, kəngərlilərin Yurdçu tayfası - 6 ailə) mənsub 48 ailə, 110-u kişi, 103-ü qadın olmaqla cəmi 213 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 417-429; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 482-486).

*Arınc* kəndi Kotanlı çayının Arpaçaya töküldüyü dağlıq bir ərazidə yerləşirdi və ərazisi 28 verst idi. Xəzinəyə məxsus olan bu kənddə qaraçorluların Təhməzli və Püsyanlı tayfalarına mənsub 32 ailə, 93-ü kişi, 84-ü qadın olmaqla cəmi 177 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 430-439; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 486-489).

Arpaçayın sahilində yerləşən *Daşkənd* kəndi 7 verst ərazisi vardı. Xəzinəyə məxsus olan bu kənddə qaraçorlularn Xələcli tayfasına mənsub 14 ailə, 26-sı kişi, 36-sı qadın olmaqla cəmi 62 nəfər yaşayırdı. Bu kəndin əhalisi 4 il qabaq[10] naməlum yerlərə dağılışmışdılar (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 440-443; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 489-490).

[9] Qaraçorluların Təhməzli tayfası.
[10] Kameral təsvir 1831-ci ilə aid olduğundan 4 il bundan qabaq, yəni 1827-ci ildə (Nazir Əhmədli 1838-ci il yazır, s. 490).

*Köçbək* kəndi eyni adlı çayın sahilində yerləşirdi və ərazisi 14 verst idi. Xəzinəyə məxsus oln bu kənddə qaraçorluların Həsənanlı tayfasına mənsub 6 ailə, 13-ü kişi, 12-si qadın olmaqla cəmi 25 nəfər yaşayırdı. Bu kəndin əhalisi kəndi tərk etmişdi, nə vaxt və haraya getdikləri tərtibçiyə məlum deyildi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 444-445; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 490-491).

*Gümüşxana* kəndi Arpaçaya tökülən Çümüşxana çayının yanında yerləşirdi və ərazisi 21 verst idi. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Bozlu tayfasına mənsub 8 ailə, 17-si kişi, 18-i qadın olmaqla cəmi 35 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 446-448; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 491-492).

*Tarp* kəndi Köçbək çayının Arpaçaya töküldüyü yerdə yerləşirdi və 21 verst ərazisi vardı. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Bozlu tayfasına mənsub 21 ailə, 50-si kişi, 46-sı qadın olmaqla cəmi 96 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 449-454; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 492-494).

Arpaçayın sahilində, dağlıq yerdə yerləşən *Terp* kəndinin ərazisi 21 verst idi. Xəzinəyə məxsus olan bu kənddə qaraçorlulardan (qaraçorluların Fərruxqanlı tayfası - 8 ailə, Kulakanlı tayfası - 3 ailə, Bozlu tayfası - 1 ailə) və kəngərlilərdən (kəngərlilərin Yurdçu tayfası - 5 ailə) ibarət 17 ailə, 48-i kişi, 46-sı qadın olmaqla cəmi 94 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 455-460; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 494-496).

Arpaçayın sahilində yerləşən *Çaykənd* kəndinin 7 verst ərazisi vardı. Müxtəlif tayfaların (qaraçorluların Həsənanlı tayfası - 12 ailə, tatarların Əliyanlı tayfası - 2 ailə, Sultanlı tayfası - 1 ailə) yaşadığı bu kənddə 15 ailə, 42-si kişi, 36-sı qadın olmaqla cəmi 78 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 461-465; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 496-497).

*Cul* kəndi Arpaçaya tökülən Cul çayının sahilində salınmışdı və ətrafındakı torpaqlar 28 verst idi. Xəzinəyə məxsus bu kənddə əvvəllər 200 həyət olmuşdur. Müxtəlif tayfaların (qaraçorluların Kulakanlı tayfası - 20 ailə, Püsyanlı tayfası - 2 ailə, Sultanlı tayfası - 2 ailə, tatarların Sisyanlı tayfası - 1 ailə) yaşadığı bu kənddə 25 ailə, 56-sı kişi, 61-i qadın olmaqla cəmi 117 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 466-473; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 497-499).

*Gomur* kəndi Arpaçaya tökülən Axta çayın yaxınlığında, dağlıq yerdə yerləşirdi və 14 verst torpağı vardı. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Kulakanlı tayfasına mənsub 5 ailə, 16-sı kişi və 11-i qadın olmaqla cəmi 27 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 474-475; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 500).

*Gabud* kəndi Arpaçay yaxınlığında dağlıq yerdə yerləşirdi və 10 verst torpağı vardı. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Kulakanlı tayfasına mənsub 8 ailə, 20-si kişi, 15-i qadın olmaqla cəmi 35 nəfər yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 476-478; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 501-502).

*Haxılı* kəndi Arpaçayın yaxınlığında yerləşirdi və ərazisi 7 verstə yaxın idi. Xəzinəyə məxsus olan kənddə qaraçorluları Kulakanı tayfasına mənsub 2 ailə, 4-ü kişi, 7-si qadın olmaqla cəmi 11 nəfər qeydə alınmışdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 479; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 502).

Arpaçayın yaxınlığında yerləşən *Qayalı* kəndi ərazisi 7 verst idi. Kənd dövlətə məxsus idi. Bu kəndində qaraçorluların Küləkçə tayfasının mənsub 9 ailə, 20-si kişi, 20-si qadın olmaqla cəmi 40 adam yaşayırdı (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 480-482; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 502-503).

*Martiros* kəndi Martiros çayının kənarında, dağlıq yerdə yerləşirdi və ərazisi 28 verst idi. Xəzinəyə məxsus bu kənddə qaraçorluların Təhməzli tayfasına mənsub 13 ailə, Püsyanlı tayfasına mənsub olan 4 ailə, Milli tayfasına aid olan 2 ailə, cəmi 19 müsəlman ailəsi, 49-i kişi, 48-i qadın olmaqla 97 nəfər müsəlman və Qacarlar dövlətindən köçürülmüş 40 erməni ailəsi, 119-u kişi, 87-si qadın olmaqla cəmi 206 nəfər erməni yaşayırdı. Kəndin ümumi əhalisi 59 ailədən, 167-si kişi, 134-ü qadın olmaqla cəmi 301 nəfərdən ibarət idi (Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 483-490; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 503-505).

Naxçıvan əyalətinin Dərələyəz mahalının kəndləri üzrə müsəlman ailələrin say, cins və etnik tərkibinə görə cədvəllər aşağıdakı cədvəldə verilmişdir:

*Cədvəl 1*

***(Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 2-490; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 406-505).***

| **Naxçıvan əyalətinin Dərələyəz mahalının kəndlərinin müsəlman əhalisi** | | | | | |
|---|---|---|---|---|---|
| **Kəndin adı** | **etnik mənsubiyyət** | **Ailə** | **Kişi** | **Qadın** | **Cəmi** |
| 1. Axura | Tatar[11] | 23 | 70 | 56 | 126 |
| 2.Dostəli bəy Dizəsi | Tatar | 3 | 9 | 5 | 14 |
| 3.Həmzə Əli Dizəsi | Tatar | 19 | 39 | 40 | 79 |
| 4.Yaycı | Tatar | 246 | 448 | 449 | 897 |
| 5.Cağazur | Tatar | 5 | 10 | 6 | 16 |
| 6. Xaçik | 1 ailə tatar, 5 ailə Cəlali kürdü | 3 | 6 | 3 | 9[12] |
| 7. Amağu | Tatar | 9 | 15 | 16[13] | 31 |
| 8.Yuxarı Danzik | Tatar | 30 | 57 | 69 | 126 |
| 9. Aşağı Danzik | Tatar | 7 | 14 | 13 | 27 |
| 10.Çivə | Tatar | 9 | 15 | 14 | 29 |
| 11. Heşin | Qaraçorlu | 14 | 34 | 28 | 62 |
| 12. Çanaxçı | 3 ailə tatar, 1 ailə Zilan kürdü | 4 | 17 | 13 | 30 |
| 13.Qaşqa | Tatar | 1 | 5 | 3 | 8 |
| 14.Qozluca | 3 ailə kürdlərin Zilan-cəlali Miqirqanlı tayfası, 8 ailə qaraçorluların Həsənanlı tayfası | 11 | 35 | 25 | 60 |
| 15.Qızılqışlaq | Püsyanlı tayfası | 17 | 43 | 42 | 85 |
| 16. Ağxaç | Tatar | 6 | 23 | 14 | 37 |
| 17. Qabaqlı | Qaraçorluların Kulakanlı tayfası | 8 | 16 | 17 | 33 |
| 18. Zeytə | Qaraçorluların Şadmanlı tayfası | 18 | 40 | 27 | 67 |
| 19. Ziqrik, digər adı Qurdqulaq | Qaraçorluların Şadmanlı tayfası | 10 | 27 | 16 | 43 |
| 20.Qinişik | Zilan kürdlərinin Cəlali tayfası | 1 | 1 | 2 | 3 |

[11] Azərbaycan Türkü
[12] Nazir Əhmədli texniki xəta olaraq 15 yazmışdır (Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 426).
[13] Nazir Əhmədli texniki xəta olaraq 6 yazmışdır (Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 427).

| | | | | | |
|---|---|---|---|---|---|
| 21. Əyər | Qaraçorluların Təhməzli tayfası | 6 | 18 | 12 | 30 |
| 22. Məlikşah | Qaraçorluların Şeylanlı tayfası | 3 | 7 | 11 | 18 |
| 23. Hors | Qaraçorlu | 3 | 13 | 13 | 26 |
| 24. Ağkənd | Qaraçorluların Əliyanlı tayfası | 39 | 124 | 98 | 222 |
| 25. Ağdərə | Qaraçorluların Əliyanlı tayfası | 13 | 45 | 33 | 78 |
| 26. Rəsul qışlağı | Kəngərlilərin Əliyanlı tayfası | 5 | 13 | 10 | 23 |
| 27. Şahgəldi qışlağı | Qaraçorluların Əliyanlı tayfası 5 ailə, Milli kürd tayfası 2 ailə | 7 | 16 | 20 | 36 |
| 28.Sallı | 14 ailə Bərgüşad[14] tayfası, 3 ailə Püsyanlı kürdlərin Babalı tayfası | 17 | 33 | 44 | 77 |
| 29.Obana | Qaraçorluların Hacısamlı tayfası | 5 | 13 | 12 | 25 |
| 30. Ardaras | Kürdlərin Püsyanlı tayfası | 6 | 18 | 12 | 30 |
| 31. Əli qışlağı | Qaraçorluların Təhməzli tayfası | 3 | 13 | 6 | 19 |
| 32. Əlixan Pəyəsi | Əlixanlı tayfası | 5 | 9 | 9 | 18 |
| 33. Xorvadıx | Qaraçorluların Hacısamlı tayfası | 9 | 15 | 20 | 35 |
| 34. Ələyəz | Qaraçorluların Tərtərli və Hacısamlı tayfalarına | 4 | 18 | 14 | 32 |
| 35. Güneyvənk | Qaraçorluların Hacısamlı tayfası | 10 | 28 | 30 | 58 |
| 36. Qovuşuq | Qaraçorluların Hacısamlı tayfası | 18 | 53 | 43 | 96 |
| 37. Qaravənk | Tatar (Şıxanlı tayfası) 11 ailə və Qaraçorluların Əliyanlı tayfası 3 ailə | 14 | 46 | 34 | 80 |
| 38. Cağatay | Qaraçorluların Kulakanlı tayfası | 6 | 17 | 13 | 30 |

[14] Nazir Əhmədli qeyd edir ki, İ.Şopen bu tayfanın Kəngərli tayfası olduğunu yazır, Xok mahalının Tənənəm kəndində qeydə alınmış 6 Bərgüşadlı ailəsi də Kəngərli tayfası kimi göstərilmişdir.

| | | | | | |
|---|---|---|---|---|---|
| 39. Ertış | Milli tayfası 10 ailə, tatarlar 3 ailə | 13 | 45 | 25 | 70 |
| 40. Axta | Qaraçorluların Həsənanlı tayfası 23 ailə, Milli tayfası 5 ailə, tatarlar 6 ailə | 34 | 100 | 87 | 187 |
| 41. Tezxarab | Qaraçorluların Kulakanlı tayfası | 5 | 10 | 12 | 22 |
| 42. Por | Qaraçorluların Bozlu tayfası | 5 | 10 | 8 | 18 |
| 43. Qaralar | Qaraçorluların Bozlu tayfası | 13 | 25 | 24 | 49 |
| 44. Göyərçin | Qaraçorluların Həsənanlı tayfası | 5 | 13 | 7 | 20 |
| 45. Söylan | Qaraçorluların Kulakanlı tayfası | 14 | 30 | 28 | 58 |
| 46. Mərətüz | Qaraçorluların Həsənanlı tayfası | 6 | 17 | 16 | 33[15] |
| 47. Ərgəz | Qaraçorluların Təhməzli tayfası 28 ailə, Püsyanlı tayfası 5 ailə, Milli tayfası 1 ailə, kəngərlilərin Yurdçu tayfası 2 ailə, Şadılı tayfası 1 ailə, Qarabağlı tayfası 1 ailə | 38 | 109 | 84 | 193 |
| 48. Bülbülölən | Qaraçorluların Gəlohçu tayfası | 12 | 43 | 24 | 67 |
| 49. Aşağı Canı | Qaraçorluların Təhməzli tayfası 8 ailə, Türkiyədən gələn 1 ailə[16]; tatar 1 ailə | 10 | 21 | 24 | 45 |
| 50. Her-Her | Qaraçorluların Fərruxqanlı tayfası 26 ailə, Əliyanlı[17] tayfası 3 ailə, Qaraçorluların Əliyanlı tayfası 2 ailə, Püsyanlı tayfası 1 ailə, Zilanlı tayfası 3 ailə, Qaraçorluların Həsənanlı | 48 | 110 | 103 | 213 |

[15] Nazir Əhmədli texniki xəta olaraq 32 yazmış.
[16] Qaraçorluların Təhməzli tayfası.
[17] Tatarların.

| | | | | | |
|---|---|---|---|---|---|
| | tayfası 1 ailə, Hacısamlı tayfası 3 ailə, Şadılı tayfası 3 ailə, kəngərlilərin Yurdçu tayfası 6 ailə | | | | |
| 51. Arınc | Qaraçorluların Təhməzli və Püsyanlı tayfası | 32 | 93 | 84 | 177 |
| 52. Daşkənd | Qaraçorlularn Xələcli tayfası | 14 | 26 | 36 | 62 |
| 53.Köçbək | Qaraçorluların Həsənanlı tayfası | 6 | 13 | 12 | 25 |
| 54. Gümüşxana | Qaraçorluların Bozlu tayfası | 8 | 17 | 18 | 35 |
| 55. Tarp | Qaraçorluların Bozlu tayfası | 21 | 50 | 46 | 96 |
| 56.Terp | Qaraçorluların Fərruxqanlı tayfası 8 ailə, Kulakanlı tayfası 3 ailə, Bozlu tayfası 1 ailə, kəngərlilərin Yurdçu tayfası 5 ailə | 17 | 48 | 46 | 94 |
| 57. Çaykənd | Qaraçorluların Həsənanlı tayfası - 12 ailə, tatarların Əliyanlı tayfası - 2 ailə, Sultanlı tayfası - 1 ailə | 15 | 42 | 36 | 78 |
| 58. Cul | Qaraçorluların Kulakanlı tayfası - 20 ailə, Püsyanlı tayfası - 2 ailə, Sultanlı tayfası - 2 ailə, tatarların Sisyanlı tayfası - 1 ailə | 25 | 56 | 61 | 117 |
| 59. Gomur | Qaraçorluların Kulakanlı tayfası | 5 | 16 | 11 | 27 |
| 60. Gabud | Qaraçorluların Kulakanlı tayfası | 8 | 20 | 15 | 35 |
| 61. Haxılı | Qaraçorluların Kulakanlı tayfası | 2 | 4 | 7 | 11 |
| 62. Qayalı | Qaraçorluların Küləkçə tayfası | 9 | 20 | 20 | 40 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 63. Martiros | Qaraçorluların Təhməzli tayfası 13 ailə, Püsyanlı tayfası 4 ailə, Milli tayfası 2 ailə | 19 | 49[18] | 48[19] | 97[20] |
| Cəmi | | 1.001 | 2.411 | 2.172 | 4.583 |

Cədvəl 1-dən göründüyü kimi Naxçıvan əyalətinin Dərələyəz mahalının 63 kəndində 1.001 müsəlman ailəsi yaşayırdı ki, bunun da 432-si tatar, 537-si Qaraçorlu, 13-ü Cəlali və Zilan kürdü, 15-i Milli olmuşdur.

Dərələyəz mahalının kəndləri üzrə yerli erməni ailələrinin say və cins tərkibi aşağıda verilmişdir:

***Cədvəl 2***

***(Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 2-490; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 406-505).***

| **Naxçıvan əyalətinin Dərələyəz mahalının kəndlərindəki yerli[21] ermənilər** | | | | |
|---|---|---|---|---|
| **Kəndin adı** | **Ailə** | **Kişi** | **Qadın** | **Cəmi** |
| 1. Xaçik | 15 | - | - | - |
| 2. Arpa | 14 | - | - | - |
| 3. Çivə | 4 | 9 | 7 | 16 |
| 4. Aynazur | 18 | - | - | - |
| 5. Qinişik | 6 | 12 | 16 | 28 |
| 7. Ələyəz | 1 | - | - | - |
| Cəmi | 74 | - | - | - |

Cədvəl 2-dən göründüyü kimi Türkmənçay müqaviləsindən əvvəl Naxçıvan əyalətinin Dərələyəz mahalının 7 kəndində 74 erməni ailəsi qeydə alınmışdır.

Osmanlı dövlətindən Dərələyəz mahalının kəndlərinə köçürülən ailələrin say və cins tərkibi aşağıda verilmişdir:

[18] Tərtibçi hesablamada xəta edərək 48 yazmışdır.
[19] Tərtibçi hesablamada xəta edərək 47 yazmışdır.
[20] Tərtibçi yanlış hesablayaraq 75 yazmışdır.
[21] Rus qaynaqları onları yerli ermənilər olaraq göstərsə də, onlar 1827-ci ilədək müxtəlif vaxtlarda gəlib burada yerləşən ermənilərdir.

*Cədvəl 3*

*(Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 2-490; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 406-505).*

| Naxçıvan əyalətinin Dərələyəz mahalının kəndlərinə Osmanlı dövlətindən köçürülərək yerləşdirilən ermənilər | | | | |
|---|---|---|---|---|
| **Ermənilərin köçürüldüyü kəndin adı** | **Ailə** | **Kişi** | **Qadın** | **Cəmi** |
| 1. Arpa | 4 | - | - | - |
| 2. Çivə | 2 | 4 | 3 | 7 |
| 3. Aynazur | 1 | - | - | - |
| 4. Keşişkənd | 1 | - | - | - |
| Cəmi | 8 | - | - | - |

Cədvəl 3-dən göründüyü kimi, Naxçıvan əyalətinin Dərələyəz mahalının 4 kəndinə Osmanlı dövlətindən 8 erməni ailəsi köçürülərək yerləşdirilmişdir.

Qacarlar dövlətindən Dərələyəz mahalının kəndlərinə köçürülən ailələrin say və cins tərkibi aşağıda verilmişdir:

*Cədvəl 4*

*(Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 2-490; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 406-505).*

| Naxçıvan əyalətinin Dərələyəz mahalının kəndlərinə Qacarlar dövlətindən köçürülərək yerləşdirilən ermənilər | | | | |
|---|---|---|---|---|
| **Ermənilərin köçürüldüyü kəndin adı** | **Ailə** | **Kişi** | **Qadın** | **Cəmi** |
| 1. Xaçik | 4 | - | - | - |
| 2. Yelpin | 18 | 73 | 63 | 136 |
| 3. Çanaxçı | 24 | 88 | 91 | 179 |
| 4. Qaşqa | 10 | 36 | 29 | 65 |
| 5. Keşişviran | 9 | 22 | 21 | 43 |
| 6. Qoytul | 36 | 99 | 102 | 201 |
| 7. Aynazur | 6 | - | - | - |
| 8. Yengicə | 6 | 21 | 21 | 42 |
| 9. Əyər | 36 | 100 | 86 | 186 |
| 10. Məlikşah | 42 | 122 | 121 | 243 |

| | | | | |
|---|---|---|---|---|
| 11. Keşişkənd | 56 | - | - | - |
| 12. Orta kənd | 25 | 77 | 51 | 128 |
| 13. Başkənd | 16 | 54 | 37 | 91 |
| 14. Hors | 31 | 91 | 79 | 170 |
| 15. Tərətün | 10 | 26 | 30 | 56 |
| 16. Kələkülü | 21 | 60 | 61 | 121 |
| 17. Həsən | 17 | 53 | 39 | 92 |
| 18. Ərdəpin | 38 | 91 | 81 | 172 |
| 19. Ələyəz | 11 | - | - | - |
| 20. Azadək | 33 | 90 | 76 | 166 |
| 21. Paşalı | 18 | 49 | 49 | 98 |
| 22. Martiros | 40 | 119 | 87 | 206 |
| Cəmi | 507 | - | - | - |

Cədvəl 4-dən göründüyü kimi, Naxçıvan əyalətinin Dərələyəz mahalının 22 kəndinə Qacarlar dövlətindən 507 erməni ailəsi köçürülüb yerləşdirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Dərələyəz mahalının 32 kəndi boş olmuşdur. Dərələyəz mahalının boş kəndləri cədvəl 5-də göstərilmişdir:

***Cədvəl 5***

***(Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g., v. 505-507; Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 506-507).***

| **Dərələyəz mahalının boş kəndləri** | | | |
|---|---|---|---|
| **Kəndin adı** | **Ərazisi** | **Yerləşdiyi mövqe** | **Məxsus idi** |
| 1. Kəllətağ | 18 verst | Yaycı və Xaçik kəndlərinin yaxınlığında, bulaqları vardı. | Yerli əhalinin dediyinə görə, buralar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsus idi. |
| 2. Havuş | 8 verst | Qnişik və Havuş kəndlərinin yaxınlığında, bulaqları vardı. | Yerli sakinlərin dediyinə görə, mülkədarı İbrahim Sultan, Hüseynəli Sultan və Bayramqulu Sultandır. |

| | | | |
|---|---|---|---|
| 3. Tamaşalıq | 20 verst | Oğbin kəndinin yaxınlığında, bulaqları vardı. | Torpaqlar İbrahim Sultan, Hüseynəli Sultan və Bayramqulu Sultana məxsus idi. |
| 4. Bayadərə | 4 verst | Xaçik kəndinin yaxınlığında, bulaqları vardı. | Yerli sakinlərin dediyinə görə, torpaqlar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsus idi. |
| 5.Mərətüz qışlağı | 7 verst | Yaycı və Axura kəndlərinin yaxınlığında, bulaqları vardı. | Əhalinin dediyinə görə, torpaqlar Hüseynəli Sultana məxsus idi. |
| 6.Pənah qalası | 8 verst | Axura kəndinin yaxınlığında, bulaqları vardı. | Əhalinin dediyinə görə, torpaqlar Hüseyn xana məxsus idi. |
| 7. Vartapul | 18 verst | Ziqrik, Oğbin və Azadək kəndlərinin yaxınlığında, bulaqları vardı. | Xəzinəyə məxsus idi. |
| 8.Mozrov | Ümumilikdə 20 verst | Ziqrik və Qnişik kəndlərinin yaxınlığında, bulaqları vardı. | Xəzinəyə məxsus idi. |
| 9. Gənzək | | | |
| 10.Aşağı Canı | Ümumilikdə 40 verst | Canı və Ələyəz çaylarının ətrafında | Xəzinəyə məxsus idilər. |
| 11.Yuxarı Canı | | Canı və Ələyəz çaylarının ətrafında | |
| 12. Qaraqala | | Ələyəz kəndinin yaxınlığında | |
| 13. Vənk | | Ələyəz kəndindən yuxarıda yerləşirdi. | |
| 14. Ayısəsi | Ümumilikdə 28 verst | Xorvadıx kəndinin yaxınlığında, bulaqları vardı. | Xəzinəyə məxsus idilər. |
| 15.Qalaser | | | |

| | | | |
|---|---|---|---|
| 16. Qoşavənk | 7 verst | Xorvadıx kəndinin yaxınlığında, bulaqları vardı. | Xəzinəyə məxsus idi. |
| 17. Çomalı | 14 verstə yaxın | Qoşavənk kəndinin yaxınlığında, bulaqları vardı | Xəzinəyə məxsus idi. |
| 18.Vartanes | 18 verstə yaxın | Çanaxçı kəndinin yaxınlığında, bulaqları vardı. | Xəzinəyə məxsus idi. |
| 19. Cəfərli<br>20.Kömürlü | Ümumilikdə 20 verstə yaxın | Yelpin kəndinin yaxınlığında, bulaqları vardı. | Xəzinəyə məxsus idi. |
| 21.Bağçacıq | 18 verst | Çivə və Qozluca kəndlərinin yaxınlığında, bulaqları vardı. | Əhalinin dediyinə görə, buranın mülkədarı Hüseynəli Sultan idi. |
| 22. Ruqirt | 7 verstə yaxın | Bağçacıq kəndin yaxınlığında, bulaqları vardı. | Xəzinəyə məxsus idi. |
| 23. Görgəbağ<br>24. Qulubağ | Ümumilikdə 10 verstə yaxın | Tərətün və Ağkəndin yaxınlığında, bulaqları vardı. | Xəzinəyə məxsus idi. |
| 25. Qortun | 14 verstə yaxın | Çanaxçı və Yelpin kəndlərinin yaxınlığında, bulaqları vardı. | Əhalinin dediyinə görə, torpaqlar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsus idi. |
| 26. Muğancıq | 14 verstə yaxın | Ərdəpin və Kələkülü kəndlərinin yaxınlığında, bulaqları vardı. | Əhalinin dediyinə görə torpaqlar Dostəli bəyə məxsus idi. |
| 27. Reytə | 7 verstə yaxın | Zeytə və Qabaqlı kəndlərinin | xəzinəyə məxsus idi. |

| | | | |
|---|---|---|---|
| | | yaxınlığında, bulaqları vardı. | |
| 28. Çıraqoğlu | 20 verstə yaxın | Köçbək kəndinin yaxınlığında yerləşirdi. Kameral təsvirin tərtibçisinə görə suvarma üçün Köçbək çayından və buradakı bulaqlardan istifadə edilə bilərdi. | Xəzinəyə məxsus idi. |
| 29. Qndevaz | Ümumilikdə 50 verstə yaxın | Qarabağın sərhəddinə yaxınlıqda, Arpa çayının suyundan və bulaqlardan istifadə edilə bilərdi, kifayət qədər meşə örtüyünə malik idi. | ------- |
| 30. Quşçu | | | |
| 31. Bilək | | | |
| 32. Paşadüz[22] | 28 verstə yaxın | Söylan və Məlişkə kəndlərinin yaxınlığında, bulaqları vardı. | Xəzinəyə məxsus idi. |

Tərtibçi Zolotnitskiyə görə yerli əhali bəzi boş kəndlərin mülkədarlara məxsus olduğunu desələr də, onun topladığı məlumatlara görə bu kəndlər xəzinəyə məxsus imiş, çünki Qacarlar dövlətinin vaxtında Dərələyəz mahalında mülkədar torpaqları olmamışdır.

**Nəticə**

Beləliklə, 1831-ci il Dərələyəz mahalının kameral təsvirinə görə (Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 508) mahalın əhalisinin demoqrafik vəziyyəti aşağıdakı cədvəldə göstərildiyi şəkildə olmuşdur:

[22] Kəndin başqa adı Daylaqlıdır.

*Cədvəl 6*

| **Naxçıvan əyalətinin Dərələyəz mahalının əhalisinin demoqrafik vəziyyəti** | | | | | | |
|---|---|---|---|---|---|---|
| Tərkibi | ailə | kişi | % | qadın | % | cəmi |
| Müsəlmanlar (Azərbaycan türkləri və kürdlər) | 1.001 | 2.411 | 52,6 | 2.172 | 47,4 | 4.583 |
| % | 63,6 | 60 | - | 60 | - | 60 |
| Yerli ermənilər[23] | 58 | 141 | 49 | 147 | 51 | 288 |
| % | 3,7 | 3,5 | - | 4 | - | 3,8 |
| Qacarlar dövlətindən köçürülən ermənilər | 507 | 1.453 | 53 | 1.293 | 47 | 2.746 |
| % | 32,2 | 36,1 | - | 35,7 | - | 35,9 |
| Osmanlı dövlətindən köçürülən ermənilər | 8 | 17 | 63 | 10 | 37 | 27 |
| % | 0,5 | 0,4 | - | 0,3 | - | 0,3 |
| Cəmi | 1.574 | 4022[24] | 52,6 | 3622[25] | 47,4 | 7644[26] |

Cədvəl 6-daki Rusiya işğalından sonra Dərələyəz mahalına Qaçarlar dövləti və Osmanlı dövlətindən köçürülən erməni ailələrini nəzərə almasaq, o zaman işğal ərəfəsində mahalda əhalinin ümumi sayı 1059 ailə olmuşdur ki, bunun da 94,5%-ni (1001 ailə) müsəlmanlar, 5,5%-ni (58 ailə) ermənilər təşkil etmişdir. Buradan mahalda erməni ailələrin sayının çox cüzi olduğu məlum olur. Nəzərə alsaq ki, işğaldan sonra mahalı tərk edən ailələr də çox olmuşdur, o zaman müsəlman ailələrinin sayının daha çox olduğunu demək olar. Rusiya işğalından sonra Dərələyəz mahalında müsəlman kişilər 60%, ermənilər 40%, müsəlman qadınlar 60%, erməni qadınlar isə 40% təşkil etmişdir. Ümumilikdə mahalda kişilər 52,6%, qadınlar 47,4% olmuşdur. Cədvəl 6-dan da göründüyü kimi Rusiya işğalından əvvəl Dərələyəz mahalında sadəcə 58 ailə (3,7%), yəni 288 nəfər (3,8%) erməni yaşamışdır, işğaldan sonra isə Qacarlar dövlətindən 507 ailə (32,2%) və Osmanlı dövlətindən 8 ailə (0,5%) erməni köçürülərək gəlmə

[23] Rus qaynaqları onları yerli ermənilər olaraq göstərsə də, onlar 1827-ci ilədək müxtəlif vaxtlarda gəlib burada yerləşən ermənilərdir.
[24] Kameral təsvirin tərtibçisi səhv hesablayaraq 4.075 yazmışdır (Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 508), bizim hesablamalar görə 4022-dir.
[25] Kameral təsvirin tərtibçisi səhv hesablayaraq 3.661 yazmışdır (Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 508), bizim hesablamalar görə 3622-dir.
[26] Kameral təsvirin tərtibçisi səhv hesablayaraq 7.736 yazmışdır (Dərələyəz mahalının kameral təsviri, 1831-ci il, 2021, s. 508), bizim hesablamalar görə 7644-dür.

erməni ailələrinin sayı 515 ailəyə (32,7%) çatdırılmışdır. Bununla da Rusiya işğalından əvvəlkiylə işğaldan sonra köçürülən erməni ailələrinin sayı cəmi 573 ailə etmişdir ki, bu da ümuni əhalinin 36,4%-ni təşkil edir. Dərələyəz mahalında yaşayan müsəlman ailələrinin sayının 1001 olduğunu, yəni mahal əhalisinin 63,6%-ni təşkil etdiyi nəzərə alındığında həm Rusiya işğalından əvvəl, həm də sonra burada müsəlmanların şəksiz üstünlüyə malik olduğu məlum olur.

## Kaynaklar

*Kameralnoye Opisaniye Nahiçevanskoy Provintsii Daralagyozskogo Magala za 1831 g.*, Natsionalnıy Arhiv Armenii, F. 90, Op. 1, D. 102.

Dərələyəz mahalının kameral təsviri. *Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri, 1831-ci il*, (2021), tərcümə və tərtib edən, ön söz, qeyd və şərhlərin müəllifi Nazir Əhmədli, Bakı, Elm və Təhsil.

Məmmədova, İ. (2017). *İrəvan xanlığının əhalisi*. Azərbaycan Tarixçiləri İctimai Birliyi.

Şopen, İ. (1852), *İstoriçeskiy Pamyatnik Sostoyaniya Armyanskoy Oblasti V Epohu Yeyo Prisoyedineniya K Rossiyskoy İmperii*, Sankt-Peterburg, tip. İmp. Akad. Nauk.